# Zəngəzur dəhlizi regionda sülhün, sabitliyin, inteqrasiyanın qarantına çevriləcək

**"Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev iyulun 5-də Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlərin görüşü zamanı səsləndirib.**

Ölkə başçımız, həmçinin İkinci Qarabağ müharibəsində məğlub olan Ermənistanın kapitulyasiya aktı imzalayarkən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə diqqət çəkərək qarşı tərəfin Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olduğunu vurğulayıb.

**(davamı 5-ci səhifədə)**



(əvvəli 1-ci səhifədə)

2020-ci ildə Azərbaycan 30 il işğal altında qalan torpaqlarını azad etdi. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli Bəyanat xalqımızın haqq savaşında qalibiyyətini, düşmən ölkənin isə təslim olmasını təzahür edir. 10 noyabr Bəyanatını imzalayan tərəflər üzərlərinə bir sıra öhdəliklər götürdülər. Bəyanatın 4-cü müddəasına əsasən Qarabağda təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməli idi. Lakin sənədin imzalanmasından 3 ilə yaxın vaxt keçməsinə baxmayaraq, erməni silahlı birləşmələri hələ də Azərbaycan ərazilərindən çıxarılmayıb və həmin silahlı birləşmələr bu günə qədər saysız təxribatlar törədiblər.

Üçtərəfli Bəyanata Azərbaycan Prezidenti İlham Əliyevin tələbi ilə ölkəmiz və region üçün çox vacib olan 9-cu maddənin salınması dövlətimizin mühüm diplomatik qələbəsidir. Bu müddəanın yerinə yetirilməsi Cənubi Qafqazda Ermənistanın təxminən 30 il ərzində davam etdirdiyi işğalçılıq siyasəti nəticəsində bölgədə məhdudlaşan iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, inkişafı və bu istiqamətdə qlobal layihələrin həyata keçirilməsinə hüquqi zəmin yaradacaq. 9-cu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların,

# Zəngəzur dəhlizi regionda sülhün, sabitliyin, inteqrasiyanın qarantına çevriləcək

nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Lakin Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməyərək özü üçün də olduqca mühüm əhəmiyyət kəsb edən Zəngəzur dəhlizinin yenidən açılmasına hər vəchlə maneçilik törədir. Qarşı tərəf anlamır ki, Zəngəzur dəhlizi reallaşandan sonra bütövlükdə Cənubi Qafqazın siyasi, iqtisadi mənzərəsini dəyişəcək, regionda inteqrasiyanı təmin edəcək və iqtisadi baxımdan bu yoldan istifadə edən bütün tərəflərə real iqtisadi dividendlər gətirəcək. Tarixi Azərbaycan ərazisi olan Zəngəzurdan keçəcək kommunikasiyalar bölgənin tranzit xəritəsində mühüm yeniliklər yaradacaq. Qitənin nəqliyyat xəritəsini təkmilləşdirməklə yanaşı, Azərbaycanın qlobal logistik-tranzit qovşağı mövqeyini daha da möhkəmləndirəcək Zəngəzur dəhlizinin həm regional, həm də beynəlxalq əhəmiyyəti çox böyükdür. Zəngəzur dəhlizinin reallaşması regional nəqliyyat şəbəkələrinin genişlənməsinə səbəb olacaq və bölgə ölkələri arasında qarşılıqlı iqtisadi əlaqələri stimullaşdıracaq. Naxçıvanla birbaşa nəqliyyat yolunun açılması ümumilikdə işğaldan azad olunmuş ərazilərimizin dirçəlişi üçün də əhəmiyyətli imkanlar yaradacaq. Ötən ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə ölkə başçımız bu barədə demişdir ki, 10 noyabr Bəyanatında açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası ara da əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir.

Hər zaman olduğu kimi, sözü bir, əməli başqa olan Ermənistan vaxtilə diz çöküb imzaladığı üçtərəfli Bəyanata indi əməl etməkdən boyun qaçırır. Lakin qətiyyəti, uzaqgörənliyi ilə ərazi bütövlüyümüzü təmin edən ölkə başçımız bu günə qədər düşmən ölkə ilə apardığı sülh danışıqlarında birmənalı olaraq Zəngəzur dəhlizinin açılmasını, erməni silahlı birləşmələrinin tarixi torpaqlarımızdan çıxarılmasını tələb etmiş və bu istiqamətdə səylərini davam etdirir. 2022-ci ildə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı Prezident İlham Əliyev demişdir: "Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".

İqtisadi inkişaf mərhələsinin vacib amili olan Zəngəzur dəhlizi türk dünyası ölkələrinin iqtisadi birliyi üçün yeni imkanlar yaradacaq, regionda nəqliyyat kommunikasiyalarının açılması ilə qarşılıqlı dialoq, etimad mühiti formalaşdıracaq. Bu strateji yol Naxçıvanla birbaşa əlaqənin bərpasına, muxtar respublikanın nəqliyyat blokadasından çıxmasına imkan yaratmaqla yanaşı, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasına xidmət edəcək. Region üçün sülhün, sabitliyin, inteqrasiyanın qarantına çevriləcək Zəngəzur dəhlizi türk dünyasının birliyini gücləndirməklə yanaşı, regionda yaradılan yeni nəqliyyat imkanları hesabına Avropa ilə Asiyanın daha sıx birləşməsi fonunda regionun geosiyasi əhəmiyyətini artıracaq.

**Mehparə ƏLİYEVA,**

**"Respublika".** 2023.- 8 iyul.- S. 1; 5.